

# 97% AZƏRBAYCAN XALQININ SEÇİMİ DƏYİŞMƏZDİR

Dövlət idarəçiliyində, ictimai-siyasi proseslərdə iştirak edən şəxsləri bəzən dövlət, yaxud siyasi xadim kimi təsnifatlaşdırırlar. Şübhəsiz, bu müqayisədə dövlət xadimi daha üstün mövqe sahibidir: onun fəaliyyət məramı siyasi maraqlardan, şəxsi mənafelərdən yüksəkdə olur, daim dövlətçilik amilinə söykənir. Siyasi xadimin əsas göstəricisi isə müəyyən konyunktur məqsədlərə xidmət etməsi, yaranmış fürsətlərdən bəhrələnməsi, çox hallarda mənəvi kriteriyalara uyğun gəlməyən vasitələrdən istifadəsi, populizmə meyillənməsi və digər bu kimi xüsusiyyətlərə malik olmasıdır. Əlbəttə ki, bu bölgü, izah nisbidir və müəyyən hallarda özünü tam ehtiva etməyə də bilər.

## Ümumxalq məhəbbəti qazanan dövlət xadimi

Amma Uinston Çörçilin "dövlət xadiminin siyasi xadimdən fərqi ondadır ki, siyasətçilər gələcək seçkiləri, dövlət xadimi isə gələcək nəsilləri düşünərək fəaliyyət göstərirlər" sözləri bu fərqləndirici baxışa tam bəraət verir. Elə ətrafımızda - Azərbaycan timsalından qlobal miqyasadək ictimai-siyasi proseslərdə öndə olan insanların müxtəlif meyarlı fəaliyyətlərinə, əməllərinin nəticələrinə, keçdikləri yollara nəzər salsaq, kimin siyasətçi, kimin əsl dövlət xadimi olduğunu özlüyümüzdə aydınlaşdıra bilərik.

Seçkilərdən-seçkilərə fəallaşan, yalnız bu proseslərdə xalqla ünsiyyətə girənlər, vətəndaşları yada salanlar və bir də fəaliyyətlərini bu gündən gələcəyə qədər bütün nəsillər üçün inkişaf, rifah, təhlükəsizlik, müstəqil dövlət bəxş etməyə yönəldənlər... Sonuncular dərhal xatırlanır, çünki azdırlar, çox azdırlar...

Amma öndədirlər, yenilməzdirlər, qalibdirlər...

Özləri kimi dövlətləri də, xalqları da öndədir, daim inkişafdadır...

İlham Əliyev kimi, Azərbaycan kimi, azərbaycanlılar kimi!..

İlham Əliyev siyasətçi fəaliyyətini dövlət xadimi missiyasına qədər uğurla yüksəltməyi bacaran liderdir!

İlham Əliyev Azərbaycan tarixinin bütün dövrlərinin ən möhtəşəm dövlətini quran, möhkəmlədən, müstəqilliyi əbədiyyətə çevirən rəhbərdir!

İlham Əliyev sabahkı azərbaycanlıların bugünkü nəsildən daha yaxşı yaşamasına, daha qüdrətli ölkəyə malik olmasına çalışan, buna indidən nail olan dövlət xadimidir!

Azərbaycanda Prezident İlham Əliyevin təşəbbüs və müəllifliyi ilə keçirilən son beynəlxalq tədbir isə sübut etdi ki, o, yalnız öz xalqının sabahını deyil, ümumiyyətlə dünyanın sabahını - sivilizasiyaların perspektiv əməkdaşlığını, bəşəriyyətin daha xoşbəxt gələcəyini düşünən şəxsiyyətdir!

Təsadüfi deyil ki, Azərbaycan Prezidentinin adı son dövrlərdə az qala dünyanın siyasi trendinə çevrilib. Okeanın o tayından bu sahilinədək hər yerdə ondan, eləcə də inkişaf etdirdiyi məmləkətindən, rifaha qovuşdurduğu xalqından danışırlar, yazırlar. Doğru yazan da var, qürurlanan da çoxdur, hədyan söyləyənə də rast gəlinir. Kimi ürəyinin hökmüylə, kimi də aldığı sifarişlərin diktəsiylə Azərbaycanı, onun Prezidentini gündəmə gətirir.

Bir məqamı xüsusi vurğulayaq: İlham Əliyev şəxsiyyətinin beynəlxalq nüfuzu, onun qlobal miqyasda qazandığı yüksək imic heç də Azərbaycan Prezidenti vəzifəsinin məziyyətləri ilə müəyyənləşməyib! Nə çox dövlət, nə çox prezident...

İlham Əliyevin qətiyyətli liderlik qabiliyyəti, diplomatik məharəti, ümumdünya problemlərinin həllində yüksək fəallığı, daim sülh və əməkdaşlıq platformasından çıxış etməsi onu örnək rəhbərlər cərgəsinə ucaldıb və beləliklə də Azərbaycan Prezidenti postuna planetar səviyyədə nüfuz bəxş edib.

Prezident İlham Əliyevin personası bu gün beynəlxalq səviyyədə ehtiramla qəbul olunur. Onunla hesablaşırlar, onun rəyini öyrənirlər, onun dostluğunu qazanmağa, onunla münasibət qurmağa çalışırlar. O, aparıcı xarici təşkilatların, fövqəldövlətlərin ən yüksək səviyyədə qarşılanan qonaqlarındandır. Ötən üç ayın timsalında adi bir misal: Davos İqtisadi Forumunda, Münhen Təhlükəsizlik Konfransında, Londonda Suriyaya dəstək konfransında, Nüvə Təhlükəsizliyi sammitində iştirak; Birləşmiş Ərəb Əmirliklərinə, İran İslam Respublikasına, Türkiyəyə, Amerika Birləşmiş Ştatlarına səfərlər; dünyanın əsas fövqəldövlətindən - Ağ evdən "fəaliyyətinizi tam dəstəkləyir, liderliyinizi yüksək dəyərləndiririk" bəyanatı...

Ən nəhayət, BMT-nin Sivilizasiyalar Alyansı, UNESCO, Dünya Turizm Təşkilatı, ISESCO, Avropa Şurası kimi nüfuzlu beynəlxalq qurumların təşkilatçısı olduğu və 150-yə yaxın ölkədən 4000 iştirakçının qatıldığı forumun Bakıda baş tutması...

## Etimadın əsas göstəricisi

Bu günlərdə ölkənin əsas monitorinq mərkəzlərindən biri tərəfindən aparılmış sosioloji sorğunun nəticələrinə görə Prezident İlham Əliyevə xalqın 97 faizlik etimadı bir fakt olaraq nə qədər coşqu və qürur yaratsa da, ölkə rəhbərinin son 13 illik fəaliyyəti konteksti baxımından bu, təbii qiymətləndirmədir. Qədirbilən millətdən, son 25 il ərzində xaosdan tərəqqiyə keçidin ağrılarını unutmayan vətəndaşlardan başqa münasibət gözləmək də əsla mümkün deyil!..

Sorğu iştirakçılarının 97 faizi İlham Əliyevə tam etibar edir, 92,8 faizi prezident seçkilərində öz səsini məhz ona verməyə hazırdır, 89 faiz isə ölkə rəhbərinin onların maraqlarına cavab verdiyini düşünür.

Bəlkə də rəqəmlər üzərində baş sındırmağa, araşdırma aparmağa lüzum da yoxdur. Çünki bunlar hər halda quru statistikadır. Əsas göstərici daha canlıdır - xalqın hər addımbaşı özünü əzəmətlə göstərən inamı, etimadı, səmimiyyətidir. Əsas göstərici bu xalqın qocalı-cavanlı, kişili-qadınlı hər bir zümrəsinin Ali Baş Komandanın əmri ilə Qarabağa doğru yürüşə hazır olmasıdır!

Prezident İlham Əliyevin fəaliyyəti daim inam qazanmaq və bu inamı doğrultmaq missiyasını əks etdirir. O, xalqından, ümummilli liderdən aldığı etimadı həmişə yüksək dəyərləndirib və bunu özü üçün ən mühüm öhdəlik kimi müəyyənləşdirib. Məhz bu baxımdan da 13 ildir ki, "Əsl siyasət real iş və konkret fəaliyyətdən ibarətdir" - amalına söykənərək tariximizin ən möhtəşəm nailiyyət səhifələrinin müəllifinə çevrilib. Prezident üçün etimadın realizəsi həmişə strateji sahələrin - iqtisadiyyatın inkişafı, sosial yüksəliş, demokratiyanın tam təmini, sabitliyin möhkəmlənməsi kimi məsələlərin həllinə yönəlib və uğurla yürüdülüb.

Prezidentin konkret missiyası var: Heydər Əliyevin banisi olduğu müstəqil Azərbaycanı daha da inkişaf etdirmək, qüdrətləndirmək, dünya birliyinə sivil, modern dövlət kimi inteqrasiya etmək. Bu gün Azərbaycan bölgənin güc mərkəzi və əsas söz sahibidir, Avropanın yeni enerji təhlükəsizliyi siyasətinin başlıca təminatçılarındandır, qitələri birləşdirən enerji və kommunikasiya dəhlizlərinin "strateji dispetçeridir", ölkəmizi özlərinin marionet vassalına çevirmək istəyən fövqəldövlətlərin arzularını gözündə qoyaraq, onlarla strateji müttəfiqlik yaradan respublikadır, ən nəhayət, azad və firavan yaşayan, rəhbərinə və dövlətinə güvənən xalqın qüdrətli dövlətidir. Bütün bu faktlar Prezident İlham Əliyevin fəaliyyət hesabatının yalnız bir hissəsidir. Ümumiyyətlə isə ölkə rəhbərinin fəaliyyəti bütünlüklə inkişaf göstəricisidir!

*Prezident İlham Əliyev şərəfli bir missiya yürüdür - ləyaqətlə, uğurla və məsuliyyətlə!*

*Bu missiyasında ölkə rəhbərinə daim dəstək vermək, onunla bərabər yürümək, ətrafında səfərbər olmaq vətəndaşlıq vəzifəmizdir, şərəf borcumuzdur!*

*Bu, həm də Azərbaycana layiqli xidmət məramıdır!*

**İxtiyar HÜSEYNLİ,**
***"Azərbaycan"***